

# Unudulmaz qəhrəmanlıq

**İkinci Qarabağ müharibəsində yağı düşmənə qarşı haqq savaşımızda hünər göstərib adını tarixə yazan qəhrəmanlardan biri də Astaranın Maşxan kəndində dünyaya göz açan şəhid Rauf Cahangirovdur. Ömrünün ən gözəl çağlarında canını qurban verir ki, təki Vətəni yaşasın. Özü yaşasaydı 24 yaşı tamam olardı. Qaldı ki, əbədiyyət ulduzuna dönərək yenə də harada bir müqəddəs əməl var, onun sorağı oradan gəlir. Astara camaatı şəhidin doğulub boya-başa çatdığı ata ocağına toplaşıb onun ad gününü qeyd etdilər. Söz alanlar Raufun uşaqlıqdan Vətənə, doğma torpağına olan məhəbbətdən ürək dolusu danışdılar və hər dəfə onun adı çəkiləndə qürur duyduğunu söylədilər.**




Doğma Maşxan kəndində Vətən müharibəsi şəhidi Rauf Cahangirovun xatirəsinə inşa edilən bulağın açılışı da çox möhtəşəm keçdi. Açılış mərasimində Vətən sevdalısına ehtiram əlaməti olaraq Astara rayonu İcra Hakimiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, şəhidin doğmaları və rayon sakinləri iştirak etdilər.

Rauf Xəyyam oğlu Cahangirov Lənkəran Dövlət Universitetinin "Maliyyə və kredit" ixtisası üzrə bakalavr pilləsini bitirdikdən sonra, yəni 2019-2020-ci illərdə Ağdam rayonunda N saylı hərbi hissədə həqiqi hərbi xidmət keçir. Könüllü olaraq orduya yazılan Rauf Cahangirov yağıya nifrətini həyata keçirməkdən ötrü təlimlərə qatılır. Müharibədə Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan və Şuşa uğrunda gedən ağır döyüşlərin qəhrəmanı olur. Onun düşmənə vurduğu sarsıdıcı zərbələr böyük zəfərimizə yol açır. 2 noyabr tarixində Şuşa istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Vətən sevdalısı ölümündən sonra "Vətən uğrunda", Füzulinin , Cəbrayılın və Xocavəndin azad olmasına görə medallarla təltif edilir.

Bəli, Rafiqin ömrü qısa olsa da, onu xalqı, Vətəni üçün yaşadı. Odur ki, doğma Azərbaycanımız var olduqca, onun yeri də milyonların ürəyi olacaq.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**